# Döyüşə getməyə can atan müəllim - şəhid Rəşad Məmmədov




**Gəncənin fəxri olan, Vətən müharibəsi başlanan zaman əlindəki qələmi silahla dəyişən təhsilverənlərindən biri də Rəşad müəllim oldu. Şagirdlərinə hər zaman ondan əvvəl yazılan tarixi anladan müəllim bu dəfə özü tarix yazdı. Torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhid Rəşad Məmmədovun xatirəsi hər zaman doğmaları və şagirdləri tərəfindən ehtiramla anılır.**

AZƏRTAC-ın bölgə müxbiri şəhidin anası Rəfiqə Süleymanovanı ziyarət edib, Rəşadla bağlı xatirələri onun dilindən dinləyib. Rəfiqə ana deyib: "Uşaq vaxtlarından hərbiyə həvəsi var idi. Küçədə hərbçi görəndə sevinir, onlarla görüşür, arxalarınca gedirdi. Hər zaman düşmənə qarşı onda xüsusi nifrət olub. Müharibə başlayanda mən ona təkid etdim ki, evin tək övladıdır. Mənim də yalnız və yaşlı olmağıma görə müharibəyə getməsin. Amma mənimlə razılaşmadı. Dedi ki, onsuz da qayıdacağam, narahat olma. Hər zaman verdiyi sözü tuturdu, mən də rahat idim ki, mənə söz verib qayıdacaq. Amma bu səfər sözünü tutmadı".

Rəşad Məmmədov 4 sentyabr 1989-cu ildə Gəncə şəhərində anadan olub. 2006-cı ildə Gəncə şəhəri 34 nömrəli tam orta məktəbi bitirib və Gəncə Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. 2013-cü ildə Gədəbəy rayon Qoşabulaq kəndi 1 saylı tam orta məktəbdə tarix müəllimi kimi əmək fəaliyyətinə başlayıb. 2018-ci ildə Gəncə şəhər M.S.Vazeh adına 16 saylı tam orta məktəbdə tarix müəllimi fəaliyyətinə davam edib. 2020-ci ildə Gəncə Dövlət Universitetinin "Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə magistr pilləsində təhsil almağa başlayıb.

"Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və Azərbaycan Ordusunun sayəsində 30 illik həsrətə son qoyuldu. Mən də bir şəhid anası kimi övladımla fəxr edirəm ki, o torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçib. Üstündən 5 il keçsə də, mənim üçün elə bil hər şey dünən baş verib", - deyə şəhidin anası Rəfiqə Süleymanova deyib.

Vətən müharibəsi zamanı Rəşad Məmmədov Şuşanın azadlığı uğrunda gedən döyüş əməliyyatında iştirak edib. O, 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Azərbaycan.- 2025.- 28 oktyabr (№230).- S.9.